**Ödəniş kartları vasitəsilə yüksək risk kateqoriyalı ölkələrdə əməliyyatların aparılması zamanı təhlükəsizliyin gözlənilməsi üzrə Tövsiyələr**

"Ödəniş kartlarının emissiyası və istifadə Qaydaları"nda Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 23.06.2014-cü il tarixli 15/2 nömrəli Qərarı ilə dəyişikliklər edilmişdir. Edilmiş dəyişikliklərə əsasən müştərilərlə işin təşkilində "məsuliyyətin ötürülməsi qaydası"nın tətbiq edilmədiyi ölkələrdə və həmçinin digər əməliyyatlarda ödəniş kartları ilə aparılmış əməliyyatlarda risklərin idarə olunması məqsədilə banklar tərəfindən qabaqlayıcı tədbirlərin görülməsi nəzərdə tutulur.

Bu məqsədlə Mərkəzi Bank öz mandatına uyğun olaraq, bankların istifadə etdikləri ödəniş sistemlərinin etibarlılığının və təhlükəsizliyinin, habelə bank informasiyasının mühafizəsinin təmin edilməsi və eyni zamanda ödəniş kartları ilə dələduzluq üzrə mübarizə tədbirlərinin gücləndirilməsi məqsədilə aşağıdakı istiqamətlərdə tədbirlərin görülməsini tövsiyə edir:

**1. Kart istifadəçiləri ilə işin təşkili:**

- kart sahibi ilə bağlanmış müqavilədə müəyyən edilməklə mütəmadi olaraq bankın korporativ səhifəsi vasitəsilə və mümkün olduqda digər üsullarla (elektron poçt, SMS və s.) "məsuliyyətin ötürülməsi qaydası"nın (liability shift rule) tətbiq olunmadığı ölkələr[1] və həmin ölkələrdə əməliyyatların aparılması şərtləri barədə məlumatların kart istifadəçilərinə çatdırılması;
- kart istifadəçilərinin ödəniş kartlarından təhlükəsiz istifadə qaydaları haqqında təlimatlandırılması məqsədilə xüsusi "yaddaş kitabçaları"nın hazırlanaraq kart istifadəçilərinə ödəniş kartını alarkən təqdim edilməsi;

[1] Sənəd hazırlanan müddətə qədər "məsuliyyətin ötürülməsi qaydası"nın tətbiq edilmədiyi ölkələr: ABŞ, Banqladeş, Butan, Hindistan, Maldiv, Nepal, Yeni Zellandiya, Şri Lanka, Afrika ölkələri

- real vaxt rejimində internet üzərindən aparılan ödənişlərin avtorizasiyası zamanı ödənişin həyata keçirildiyi veb səhifədə və ya ödənişi qəbul edən üçüncü tərəfdə (xidmət provayderi) kart istifadəçisinin eyniləşdirilməsi funksiyasının (3D texnologiyası) olub-olmamasını əks etdirən atributlar barədə məlumatların (MasterCard SecureCode, Verified by Visa) kart istifadəçilərinə çatdırılması.[2]

## 2. Əməkdaşlarla işin təşkili

- ödəniş kartının istifadəsi və bununla əlaqədar digər müraciətlərə, o cümlədən əsassız silinmələrlə və səhv ödənişlərlə bağlı müraciətlərə baxılması, "məsuliyyətin ötürülməsi qaydası"nın (liability shift rule) tətbiq olunmadığı ölkələrdə aparılmış etiraz əməliyyatlarının (chargeback) araşdırılması ilə məşğul olan bank əməkdaşlarının ixtisaslaşdırılmış (sertifikatlaşdırılmış) təlimlərə cəlb edilməsi.

## 3. Təşkilati tədbirlər:

Aşağıdakı cədvələ uyğun olaraq ödəniş kartları ilə gündəlik əməliyyatlar üzrə limitlərin tətbiq edilməsi:

| **Qrup**[3] | **Bankomat** | **POS-terminal** | | **Elektron ticarət**[4] | |
|---|---|---|---|---|---|
| | | **Nağd** | **Nağdsız** | **Yalnız emitent 3D texnologiyasını dəstəklədikdə** | **Yalnız ekvayer 3D texnologiyasını dəstəklədikdə** |

[2] Bu hissə "Ödəniş kartlarının emissiyası və istifadə Qaydaları"nda dəyişikliklərin edilməsi barədə Mərkəzi Bankın İdarə Heyətinin 23.06.2014-cü il tarixli 15/2 nömrəli Qərarına uyğun olaraq 2015-ci ilin 1 yanvar tarixindən qüvvəyə minir.

[3] Risk səviyyəsi "məsuliyyətin ötürülməsi qaydası"nın tətbiq edilmədiyi ölkələrdən və ödəniş kartlarının növündən asılı olaraq müstəqil təyin edilir.

[4] Real vaxt rejimində internet üzərindən aparılan ödənişlərin avtorizasiyası üzrə (3D texnologiyası) emitent və ekvayer tərəfindən istifadəçisini eyniləşdirmək mümkün olduqda, ödəniş tranzaksiyasının məbləği üzrə limit tətbiq edilməyə bilər.

| | Məbləğ[5] | Say | Məbləğ | Say | Məbləğ | Say | Məbləğ | Say | Məbləğ | Say |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **A** | 500 (250)* | 4 | 1000 (500)* | 6 | 500 (250)* | 6 | 200 | 6 | 100 | 3 |
| **B** | 1000 (500)* | 6 (4)* | 2000 (1000)* | 9 (6)* | 1000 (500)* | 9 (6)* | 400 | 9 | 200 | 5 |
| **C** | 2000 (1000)* | 8 | 3000 (1500)* | 12 | 3000 (1500)* | 12 | 500 | 12 | 250 | 6 |
| **D** | 5000 (2500)* | 10 | 5000 (2500)* | 15 | 10 000 (5000)* | 15 | 1000 | 15 | 500 | 7 |
| **E** | Məhdudiyyətsiz | | | | | | | | | |
| **F** | 2000 (1000)* | 8 | 3000 (1500)* | Hər hansı | 7000 (1500)* | Hər hansı | 500 | Hər hansı | 250 | Hər hansı |
| **G** | 5000 (2500)* | 10 | 5000 (2500)* | Hər hansı | 15 000 (5000)* | Hər hansı | 1000 | Hər hansı | 500 | Hər hansı |

Qeyd:

** Beynəlxalq kart təşkilatları tərəfindən qəbul edilmiş "məsuliyyətin ötürülməsi qaydası"nın (liability shift rule) tətbiq edilmədiyi ölkələr üzrə müəyyən edilir.*

- ödəniş kartına xidmət üzrə müqavilədə ayrı hal nəzərdə tutulmamışdırsa, kart istifadəçisi tərəfindən "məsuliyyətin ötürülməsi qaydası"nın (liability shift rule) tətbiq olunmadığı ölkələrdə əməliyyatların aparılması üzrə limitlərin təyin olunması;
- kart istifadəçisini öncədən məlumatlandırmaqla (müqavilədə göstərilməklə) bəzi qrup təsərrüfat subyektlərində (məs. internet kazinolarda (MCC 7995), proqram təminatı satışı (MCC 5734), video oyunlar (MCC 7994) və s.) əməliyyatların aparılmasının məhdudlaşdırılması;
- kart istifadəçisinin istəyinə uyğun olaraq qeyd edilmiş limitlərin çevik dəyişdirilə bilməsi imkanının yaradılması.

[5] Əməliyyatlar üzrə məbləğlər manatla ya onun ekvivalentində xarici valyutada göstərilir.